**Sərdar Cəlaloğlu**

# İSLAMDA NƏ VAR, NƏ YOX

qanun nəşriyyatı

**Sərdar Cəlaloğlu**
**İSLAMDA NƏ VAR, NƏ YOX**
Bakı, Qanun Nəşriyyatı, 2023, 400 səh.

Janr: non-fiction/dini
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 05.05.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərtibatçı: | Əliyev Taliyət Məhəmməd oğlu |
| Elmi redaktor: | Seyidov Mirəli Lətif oğlu |
| Redaktor: | Məmmədova Fatma Abbas qızı |
| Korrektorlar: | Aygün Həsənova, Ayxan Ayvaz, Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-754-4

© Sərdar Cəlaloğlu, 2023
© Qanun Nəşriyyatı, 2023

Bu kitab İslam dini ilə bağlı bəzi mübahisəli məsələlərin elmi izahına həsr olunmuşdur.

Kitab teoloqlar, din xadimləri və dindar oxucular üçün nəzərdə tutulmuşdur.

*Rəhim və Rəhman olan Allahın adı ilə başlayıram.*
*Kitab, onun işıq üzü görməsində zəhməti keçən hər bir kəsin dünyasını dəyişmiş valideynlərinin əziz ruhlarına ehsan edilir.*

## *ÖN SÖZ*

Hörmətli oxucular, diqqətinizə təqdim edilmiş bu kitab nə elmi-populyar, nə də xalis bir dini kitabdır. Kitabın yazılma səbəbinə gəlincə, Qurani-Kərimin Ali-İmran surəsinin 180-cı ayəsində bəyan edilir: "Allahın **Öz lütf və rəhmətindən verdiyində xəsislik edən kəslər**, bu xəsisliyin onların xeyirlərinə olmasını güman etməsinlər. Əksinə, bu onlar üçün şərdir. Tezliklə xəsislik etdikləri şey Qiyamət günü boyunlarının boyunduruğu olacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah etdiklərinizdən xəbərdardır". Elm və bilik də məhz Allahın öz lütf və rəhmətindən insanlara verdiklərindəndir. Buna görə də istər dünyəvi, istər dini elmləri bilən və biliklərə malik olan hər bir kəs mütləq düz hesab etdiyi həmin bilik və elmi əliaçıqlıqla mütləq başqa insanlara çatdırmalıdır. Ayədən göründüyü kimi, bunu çatdırmamaq onlar üçün şər, bunun əksini çatdırmaq isə xeyirdir.

Biz də Allahın ədalətinə və bağışlayan sifətinə sığınaraq, malik olduğumuz elm və biliklər çərçivəsində islam dinində mübahisə doğuran və dinimizə qarşı inamsızlıq yaradan bir çox məsələlərə elmi aspektdən izah verməyə cəhd edirik. Qurani-Kərimin Maidə surəsinin 63-cü ayəsində bəyan edilir: "Nə üçün ilahi alimlər və dini bilik sahibləri onları **günah danışıqdan** və haram yeməkdən çəkindirmirlər?! Onların həmişə etdikləri çox pisdir!"

Bu kitabı yazmaqda məqsədimiz, həm də bu ayədə bəyan edildiyi kimi, insanları "Günah danışmaqdan" çəkindirməyə cəhd etməkdir. Əlbəttə ki, biz burada şərh verdiklərimizin yeganə düzgün həqiqətlər olduğunu iddia etmirik. Sadəcə hörmətli oxucuları həmin məsələlərə başqa bir tərəfdən baxmağa dəvət edir və haqqa yönəlmələrinə yardım etmək niyyəti güdürük. Qurani-Kərim və islam dini haqqında bu günədək çoxlu sayda kitablar yazılmışdır. Bizim bu kiçik cəhdimiz də həmin karvana qoşulmaq niyyətimizdən xəbər verir. Ümid edirəm ki, hörmətli oxucular bu kitabınköməkliyi ilə dinimizlə bağlı bəzi şübhələrdən xilas ola biləcəkdir. Əlbəttə ki, biz dediklərimizin şəksiz və şübhəsiz doğru olduğunu iddia etmirik. Çünki şəksiz və mütləq həqiqət yalnız "**hər şeyi bilən, Ağılı hamıdan üstün olan Alim və Əzim olan Allaha**" məxsusdur.

## *İSLAMDA NƏ VAR, NƏ YOX?*

Adətən, insanlar bir-biri ilə görüşərkən belə bir ümumi sualla hal-əhval tuturlar: "Nə var, nə yox?!" Hərə bu suala öz hal-əhvalına uyğun orijinal cavab versə də, bu sualın həm də bir və yeganə ən ümumi düzgün cavabı vardır. "**Var var, yox yoxdur, bir də yoxu var, varı yox edən Allah vardır!!"** Bu o kəslərə aiddir ki, onlar Allahın varlığına inanır, Qurani-Kərimin səmavi bir kitab olduğunu təsdiq edir, düşünməyə tənbəllik etmir, sağlam ağla və elmdə müəyyən qüvvətə malikdirlər.

Bizə görə "var və yox" **nisbi həqiqətlərdir**. Mütləq olan həqiqət tək bir Allaha məxsusdur. Allah yoxu var, varı yox edən olduğundan, hər şey onun iradəsinə tabedir. Buradan belə bir nəticə çıxır ki, **bir mütləq həqiqət varsa, o da hər şeyə özündən haqq verən Allah-taalanın varlığıdır.** Qurani-Kərim insanlara Allah-taalanın **varlığını necə dərk etmək və Ona doğru necə düzgün istiqamət götürməyin biliklərini** öyrətmək üçün Allah-taala tərəfindən insanlara nazil olmuşdur. **Allahı yada salmaq və doğru yolda tanımaq** Qurani-Kərimin insanlara nazil edilməsinin yeganə məqsədidir. **Allahın doğru yolu metafizik varlıq olan ruhun fiziki**

**aləmdə düzgün mövcud olma üsulundan ibarətdir**. Qurani-Kərimin İnsan surəsinin 115-ci ayəsində bəyan edilir: **"Rəbbinin sözü düzgünlük və ədalət baxımından kamil oldu**. **Onun sözlərini** əsla **dəyişdirən** olmayacaqdır. Odur eşidən və bilən!" Bu ayədən aydın olur ki, düzgün yaşam yolu ilə bağlı ən kamil və düzgün söz Allah-taalanın kəlamı – Qurani-Kərimdir. Quranla bağlı heç bir əqli mühakimə bu məqsədə – ruhun düzgün mövcud olma yoluna istiqamətləndirməyə zidd ola bilməz, olsa da həmin mühakimələr doğru ola bilməz.

Müsəlmanlar arasında "islam dinində nə var, nə yox" sualı ətrafında yüz illərdir mübahisə gedir və mübahisələrin müsəlmanların parçalanmasına, islam dininin xurafatla əvəzlənməsinə, insanların dinə olan inamının zəifləməsinə səbəb olub. Bu kitabda həmin sualla bağlı qısa şərh yazmağa cəhd edirəm və yazdıqlarımda dinimizin ruhuna uyğun gəlməyən səhv məqamlar olacaqsa, Allah-taala bunu mənim niyyətimin saflığına bağışlasın. Xətasız yalnız müqəddəs olan Allahdır.

## Birinci mübahisə:

# İSLAMDA HAQLA BAĞLI ALLAHIN HÖKM VERMƏSİ VARDIR, İNSANIN HÖKM VERMƏSİ YOXDUR!

Həqiqətin hər bir dərəcəsinin özünəməxsus suallandırılması vardır. Cari həqiqətə – **bu reallıqdır, ya irreallıq,** elmi həqiqətə – **bu düzdür, ya səhv,** nəzəri həqiqətə – **bu ağlabatandır, ya absurd,** fəlsəfi həqiqətə – **bu sistem yaradır, ya yox,** nəhayət, dini həqiqətə – **bu haqdır, ya batil** sualını vermək lazım gəlir. Qurani-Kərim Allah-taala tərəfindən **haqqı batildən ayıran bir kitab** kimi nazil olduğundan, dini həqiqətə verilən bütün suallar məhz Qurani-Kərim vasitəsi ilə cavablandırılmalıdır. Buradan da aydın olur ki, nəyin haqq, nəyin batil olması sualına düzgün cavabı yalnız **ağlı yüksək dərəcədə olan Azim olan Allah, hər şeyi yaxşı bilən Alim olan Allah və hər şeydən xəbərdar olan Xabir olan Allah özü verə bilər. Bu da islam dini ilə bağlı izahlarda aşağıdakı şərtlərin nəzərə alınmasını tələb edir:**

**a. Dində məcburiyyət yoxdur!**

Dünyada mövcud idealizm və inanclara zidd kitabın qadağan edilməsi ənənə halı almışdır. Əslində, kitabların qadağan edilməsi ənənəsi **totalitar təfəkkürün** məhsuludur. Məhz buna görə, Hitler və onun kimi müstəbidlər onların ideyalarına cavab verməyən ki-

tabları yandırıb məhv etməklə cavab veriblər. Halbuki söz və fikir azadlığı məhz ona görə vacibdir ki, insanlar öz fikirlərini azad ifadə etsinlər, onların düz və ya yanlış düşünmələri məlum olsun, əgər yanlış düşünürlərsə onlara haqqı tapmaqda kömək olunsun, yox, əgər düz düşünürlərsə, həmin fikirlərdən cəmiyyətin xeyrinə istifadə olunsun.

Müsəlman inancına görə, bu dünyada tək bir kitab vardır ki, bu kitabın bəyanları hər cür **şübhədən, ziddiyyətdən, çatışmazlıqdan, qeyri-kamillikdən** uzaqdır. Bu kitab Qurani-Kərimdir. Qurani-Kərimdə hər şey, o cümlədən, elmilik Allah-taala tərəfindən insanlara nazil edildiyindən, bu kitab bütün bəşəri söz və fikirlərin məhək daşıdır. Yəni bir müsəlman üçün **Qurani-Kərimlə uyğunluq təşkil edən istənilən fikir düz, uyğunluq təşkil etməyən fikir yanlışdır**. Buna görə də Qurana paralel olaraq nə qədər batil və yalan bilgilər verən kitab yayılırsa-yayılsın, Quran özünün ilahi Nuru ilə onları təkzib və inkar edir. Qurani-Kərim hər şeyə Qadir olan Allah tərəfindən nazil edilmişdir və Allah bu kitabı Qiyamət gününə kimi qoruyacağını bəyan etmişdir.

Əgər O istəsəydi, Qurani-Kərimə zidd heç bir fikir, ideya meydana çıxmazdı. Lakin Allah-taala insanları "**seçən varlıq**" kimi yaratdığından, haqla yanaşı batilin də olmasını istəmiş və insanlara **haqla batili bir-birindən ayırıb seçmək azadlığı – iradə azadlığı** vermişdir.

Məşhur alman sosioloqu F.Tyennis "Birlik və cəmiyyət" adlı kitabında yazır: "İnsan iradəsi bir-biri ilə